**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**

**Xalq şairi Fikrət Qocanın 80 illik yubileyi münasibətilə**



# "Könlümdən keçənlər"

**(metodiki vəsait)**

**B A K I – 2015**

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**

# BÖLMƏ I:

# HƏYAT VƏ YARADICILIĞI:

Onun şeirlərində duyulan nikbinlik bulaq səsinə, yarpaq rənginə bənzəyir. Özünü qoca çinarların pöhrəsinə oxşadan Firət Qoca haqlı olaraq yazır ki, sakitliyi dənizin sahilinə sərmişəm, bağrımda isə dalğalar yatır. İnsan, xüsusilə də şair ömrü belədir. İlk baxışda sakit təbiətli, mehriban xüsusiyyətli Fikrət Qocanın sinəsində uyumuş dalğaların mürgüsü bir gün yaman tərpəndi. Bu tərpənişin tufanından isə yurd itkisi boylandı, Vətən həsrəti dil acdı, şəhidlərin al qanı ruhumuza çiləndi. Boynubükük qaçqın anaların dərdi könlümüzə şıgıdı.

Fikrət Qoca (Qocayev Fikrət Göyüş oğlu) 1935-ci il avqustun 25-də Agdaş rayonunun Kotanarx kəndində anadan olub. 1964-cü ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat institutunu bitirib. Əsərləri 1956-cı ildən mətbuatda çap edilir. Azərbaycan Radio və Televiziya Verlişləri Komitəsində, “Azərbaycan gəncləri” qəzetində, “Azərbaycan” jurnalında fəaliyyət göstərib. Azərbaycan Yazıçılar Birliyinin (keçmiş Yazıçılar İttifaqının) beynəlxalq əlaqələr üzrə məsul katibi olub. 1987-ci ildən “Qobustan” incəsənət toplusunun baş redaktoru, 1998-ci ildən AYB-nin katibidir.

Fikrət Qoca dünyanın bir çox ölkələrində yaradıcılq səfərlərində olmuş, həmin ölkələrdə gedən milli-azadlıq hərəkatına şeirlər həsr etmişdir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Şeirlərinə musiqi bəstələnmişdir. Gənclərin qəhrəmanlıq və fədakarlığından “Təkərlər geri fırlanır”, “Yaralı çiçəklər” və “Rəssam düşünür” poemalarına görə “Humay” mükafatına (1998) layiq görülüb. Azərbaycan Respublikasının “Şöhrət” ordeni və Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olunub.

Fikrət Qoca “Qağayı”, “Hamıya borcluyam”, “Stixi (Moskva), “Dənizdə Ay çiməndə”, “Od gəlini”, “Tsveti zimoy” (Moskva), “Yatmadığım gecələrdə”, “Günlərin bir günü”, “Gül ömrü”, “İnsan xasiyyəti”, “Noçnaya vaxta” (Moskva), “Ömürdən səhifələr”, “Mavi dünyanın adamları”, “Taleyin ağır taleyi”, “Seçilmiş əsərləri”, “Eldən-elə, dildən-dilə” (mahnı bəstələnən şeirləri), “Sükutun səsi” (Tehran) kitablarının və “Uşaqlığın son gecəsi” filmoqrafiyasının müəllifidir.

Şairin 1990-cı illərdə qələmə aldığı “Oddan keçənlər”, “İnsan səviyyəsi”, “Adi həqiqətlər” və digər poemaları Azərbaycanda gedən azadlıq mübarizəsinə həsr olunub. Şeirlə yanaşı, həm də gözəl nəsr əsərlərinin müəllifi olan Fikrət

Qocanın “Ölüm ayrılıq deyil”və “Hələlik-qiyamətədək” povestlərində 1990-cı ilin 20 yanvar hadisələrindən bəhs edilir.

Mütəfəkkirlərdən biri deyib ki, yazıçının yaradıcılığı atışmanı xatırladır, güllə birbaşa oxucunun beyninə də keçə bilər, yandan da ötə bilər. Heç fərqi yoxdur, həmin fikirlər eyni ilə şairlərin yaradıcılığına da aiddir. Hərçənd Fikrət Qocanın yaxşı nasir olduğu da hər kəsə məlumdur. Bu mənada Fikrət müəllimin istər poeziyası, istərsə də nəsr əsərlərinin hədəfi birbaşa oxucunun beynidir. Məlum oldugu kimi, insanı, onun xarakterinin yaranması və inkişafını təyin edən bütöv həyat prosesində göstərə bilməsi bədii ədəbiyyatın ən mühüm üstünlüklərindən biridir. Fikrət Qocanın şəxsiyyətinə, bir insan kimi keyfiyyətlərinə bələd olmaq üçün onunla şəxsi tanışlığa ehtiyac da yoxdur. Onun özü, xarakteri, şəxsi keyfiyyətləri sözündən, yaradıcılığından boylanır. Başqa sözlə, Fikrət Qocanın yaradıcılığı onun pasportudur, mənəvi kimliyinin göstəricisidir.

Şairin yaradıcılığının bədiilik dərəcəsi, bədii xüsusiyyətləri isə onun şeirlərinin, poemalarının məzmun və formasından da aydın görünür. Fikrət müəllimin yaradıcılığında bədiilik təkcə məzmun və formanın vəhdətində deyil, eyni zamanda bədii təsvir vasitələrinin uygunluğundadır. Bu isə şübhəsiz ki, şairin istedadının, yaradıcılıq təcrübəsinin dərəcəsindən, sənətkarlığından, ən başlıcası isə məzmundakı ideya gerçəkliyinin əhəmiyyətindən asılıdır. Fikrət Qoca poeziyasında lirika, etika, estetika, insan ruhu, vətənpərvərlik, azərbaycançılıq, beynəlmiləlçiliklə yanaşı, yaşadığı mühitdə həzm edə bilmədiyi qüsurlara, cəmiyyətin eybəcərliklərinə, milli-mənəvi, əxlaqi dəyərlərimizin aşınmasına, milli kimliyimizdən, soykökümüzdən uzaqlaşmağa qarşı kəskin etiraz da öz əksini tapıb. Fikrət Qoca öz qələmini, necə deyərlər, arxası da, önü də kəsən sovet qılıncının qarşısına çıxararaq dövrün eybəcəriklərini, neqativ halları sərt tənqid edib. Onun “Rüşvətxorlar” şeirində deyilir:

Rüşvət-xəyanətin ocağıdır,

Rüşvət-kürəyimizə sancılan xain bıçağıdır…

Şairin, oxucunun mənəvi təlabatını ödəyən şeirlərində səmimiyyət, mənəviyyat, məhəbbət, bütövlükdə bəşəri dəyərlər sistemi özünü qabarıq şəkildə göstərir. Oxucuya əsas lazım olan oxuduğu şeirlərin ruhunda şairin mənəvi dünyasını duya, görə bilməsidir ki, bunun da Fikrət Qoca poeziyasına bir başa dəxli var…

Şairin özü ilə sözü genetik qohumdur. Onun poeziyasının "damarlarında" ruhunun geni dolaşır. Oxşarlığın səbəbinin mahiyyətində də elə məhz bu dayanır. Fikrət Qocanın sözü özündən, özü də sözündən boylanır.

Bu gün 80 yaşı olsa da, ruhən çox cavan və saglamdır. Mərhum şairimiz Osman Sarıvəlli demiş "Hər kim yüz il yaşamasa, günah onun özündədir". Fəqət bioloji sonu olsa da, belə sənətkarlar üçün yaş əslində sərhəd tanımır. Nahaq yerə deməyiblər ki, şairin yaşı onun şeirlərinin yaşı qədərdir. Bu mənada Fikrət Qocanın özü sözünə, sözü də özünə əbədi-yaşarlıq qazandırıb.

F. Qocanın lirikasında həyat cəmiyyət, əxlaq haqqında fəlsəfi fikirlər yaşayır. O, məhəbbət mövzusunda yazdığı şeirlərində vəfa, sədaqət və fədakarlığı yüksək qiymətləndirir. Fikrət Qoca əməyə, zəhmətə bağlı sənətkardır.

F.Qocanın şeirlərində duyulan nikbinlik bulaq səsinə, yarpaq rənginə bənzəyir. Özünü qoca çinarların pöhrəsinə oxşadan Fikrət Qoca haqlı olaraq yazır ki, sakitliyi dənizin sahilinə sərmişəm, bağrımda isə dalğalar yatır. İnsan, xüsusilə də şair ömrü belədir. İlk baxışda sakit təbiətli, mehriban xüsusiyyətli Fikrət Qocanın sinəsində uyumuş dalğaların mürgüsü bir gün yaman tərpəndi. Bu tərpənişin tufanından isə yurd itkisi boylandı, Vətən həsrəti dil acid, şəhidlərin al qanı ruhumuza çiləndi. Boynubükük qaçqın anaların dərdi könlümüzə şığıdı. Fikrət Qocanın şeirlərində musiqi libası biçilmiş mahnılar çoxdur. Həyat eşqi, asimana ucalmaq, coşqunluq, bulaq təmizliyi, səhər mehi, gənclik arzuları, sevib-sevilmək istəyi var o mahnılarda. Fikrət Qocanın bütün şeirlərində ürəyi görünür. Bu səbəbdən də o, qəlblərə çox asan yol tapa bilir.

Fikrət Qocanın şeirləri də ozünə bənzəyir. Doğulur, böyüyür, yaşlaşır, müdrikləşir, ucalır. Onun şeirlərində Azadlıq bir yaralı quş kimi çırpınır. Bu ağır yolun əzabını və bu əzabdan doğan fərəhi çox xəfif bir gileylə şeirlərində bildirir. Bu mövzuda qələmə aldığı şeirlərinin hamısı bir-birindən gözəl və mənalıdır. Bu şair adamı düşündürməyi bacarır. Şeir insanı heyrətləndirirsə, dondurursa, səni uzaqlara apara bilirsə, səni özünə qaytarırsa, deməli, tapıntıdır. Fikrət Qoca poeziyası tapıntılarla zəngindir. Sadəliklərin içində qeyri-adilikləri görmək və onu oxucuya dolgun şəkildə təqdim etmək qabiliyyəti hər kəsə nəsib olan istedad deyil.

Fikrət Qocanın həyata baxışlarındakı orijinallıq, özünəməxsusluq şeirlərinə cəzbedici bir möhür vurub. Nə vaxt oxusan səni özünə çəkir. Uzun müddət təsirindən çıxa bilmirsən. O dərdin şəklini sözlə elə yaradıb, elə şəkildə təqdim edib ki, ovqatında qəribəlik duyursan. Görün şair nə deyib: "Yaxşı ki insanın dərdi bir deyil". Onda nə vardı ki yaşamağa? Həyatın elə mənası da min dərdi çözməkdən ibarətdir.

## BÖLMƏ II:

## YUBİLEY TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ:

Fikrət Qoca müasir şeirimizin qüdrətli yaradıcılarındandır. Bu danılmaz həqiqətdir.

Ötüb keçməkdə olan XX əsrin təxminən yarısı qədər bir müddətdə Fikrət Qoca Sözün yaradıcısı, keşişçisi, qoruyucusu və yeniləyicisi kimi öhdəsinə düşən vəzifəni şərəflə yerinə yetirir. Gənc yaşlarından özünə Qoca təxəllüsü seçən Fikrət Qoca bir daha sübut edir ki, bu gün də şeirimizdə cavanların cavanıdır.

Bəli, bu gün Azərbaycan poeziyası və şeirində özünü həmişə cavan saxlayan Fikrət Qocanın 80 yaşı tamam olur. Bu münasibətlə respublikamızın təhsil ocaqlarinda, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və bir çox tədris müəssələrində şairin 80 illik yubileyi qeyd olunur. Şairin yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün kitabxanaçı ilk növbədə kitabxanada kitab sərgisi təşkil edə bilər. Kitab sərgisi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Könlümdən keçənlər", "Ulduzlu düşüncələr", "Sönən deyil bu ocaq", "Fikrət Qoca-80" və s. İndi isə "Fikrət Qoca-80 " adlı sərginin nümunəsini veririk.

1. Başlıq.
   **"Fikrət Qoca-80"**
2. Görkəmli insanların Fikrət Qoca haqqında söylədikləri sitatlar.
3. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
4. Kitablarının nümayişi.
5. Şeir parçası.
6. **Babalarım kasıb olub, mərd olub!**
   **Qoçaq olub, mərd olub**
   **Bəy olub, mərd olub**
   **Qaçaq olub, mərd olub**
   **Bəs bu namərdlər hardandı?**
   **Bax bu mənə dərd olub.**

**Fikrət Qoca**

**Sitatlar:**

1. Fikrət Qocanın şeirlərində məni sevindirən qüvvətli yenilik hissidir. Onun şeirlərində mədəni bir şairin, ürəyi sözlə dolu…bir insanın nəyə isə məhəbbət, nəyə isə nifrət aşılamaq istəyən bir şairin səsini eşidirik.

   Rəsul Rza

   Xalq şairi
2. Fikrət Qoca küləyin, yarpağın, suyun nəğməsini dilimizin ən zərif, ən həzin sözləriylə ifadə etməyi bacaran şairdir.

   Anar

   Xalq yazıçısı
3. Fikrət Qocanın misraları daim yoxuşa, dağ-qayaya dırmandığından, şeirlərinin, poemalarının hamısı poetik tər qoxuyur.

   Tahir Abbaslı
4. Fikrət Qoca ilk şeirlərində özünü bizə bir şair kimi tanıtdı və zaman keçdikcə yeni-yeni əsərləri ilə bu inamımızı doğrultdu. Qələmi püxtələşib, mövzu dairəsi genişlənəndə də, o öz üslubunu, özünəməxsus deyim tərzini unutmadı.

   Azəroğlu

   Şair
5. Bu şair adamı düşündürməyi bacarır. Şeir insanı heyrətləndirirsə, dondurursa, səni uzaqlara apara bilirsə, səni özünə qaytarırsa, deməli tapıntıdır. Fikrət Qocanın poeziyası tapıntılarla zəngindir.

   Flora Xəlilzadə

   Yazıçı-publisist

# Fikrət Qocanın ailə albomu:


















# KİTABLARININ NÜMAYİŞİ:




































Xalq şairi Fikrət Qocanın yubileyi münasibətilə təşkil olunan tədbirlərdən biri də kitab müakirəsidir. Kitab müzakirəsini əsasən böyük yaş qrup uşaqlarla keçirmək olar. Kitabxanaçı kitab müzakirəsini keçirən zaman şair Fikrət Qocanı və onun qələm dostlarını tədbirə dəvət edə bilər. Tədbirdə Fikrət Qocanın son dövrlərdə aktual olan kitablarının bir neçəsinin müzakirəsini keçirmək məqsədəyuğun olardı. Şair Fikrət Qocanın "Hələlik, qiyamətəcən...", "Adi Həqiqətlər" kitablarının müzakirəsini keçirmək olar. Hər iki kitabda Fikrət Qocanın müxtəlif illərdə yazdığı povest və romanları toplanmışdır. Kitabdakı hər bir əsərlərdə dövrümüzün ağrı-acıları, xalqımızın dərdi və dərdə dözüm qüdrəti, insanın mənəvi-əxlaqi dünyasının mürəkkəbliyi və zənginliyi epik növün poetik imkanlarından məharətlə istifadə olunaraq öz ifadəsini tapmışdır.

Fikrət Qocanın "Adi həqiqətlər" kitabı son on ildə çap olunan ilk kitabıdır. Buradakı şeir və poemaların heç biri şairin əvvəlki kitablarında çap olunmayıb, demək olar ki, hamısı küll halında ilk dəfə çap olunur. Son illərdə yaşadığımız agrı-acılar, vətən, yurd həsrəti, köçkünlük dərdi, şəhidlərin müqəddəs ruhuna hörmət hissi şeirlərin ana xəttini təşkil edir. Kitabdakı poemalarda isə şair həyatın adi həqiqətlərində min illər boyu tutumunu qoruyub saxlayan ədəbi problemləri mifoloji-fəlsəfi planda işıqlandırmışdır.

İnanırıq ki, Fikrət Qocanın "Adi Həqiqətlər" kitabı oxucuların ən çox sevdiyi kitablardan biri olacaq və onların stolüstü kitablarına çevriləcək.

Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan Fikrət Qocanın 80 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Tədbirə tanınmış şair və yazıçılarla yanaşı, ədəbiyyat müəllimlərini, kitabxanaçıları və şair Fikrət Qocanı dəvət etmək olar. Birinci hissə çıxış və məruzələrlə başlayır, ikinci hissədə isə şairin şeir və poemalarından parcalar səsləndirilir. Ən əvvəl səhnə gül dəstələri ilə bəzədilir. Səhnənin divarından şairin şəkli asılır. Şeirlərindən bir parça və ya sitatlarından biri səhnənin divarında yer alır.

**Hər insanın üzündə**

**Bir roman cildi var.**

**Amma açmaq olmayır,**

**Sehri var, kilidi var.**

**Fikrət Qoca**




**I Aparıcı:** Hər hansı şairin poeziyasından söz açanda öncə onun şəxsiyyəti barədə düşünürsən. Fikrət Qocanın şəxsiyyəti-insan səciyyəsi bizə gün kimi aydındır. Onun poeziyasında onun şəxsiyyətini görürük, bu şəxsiyyəti formalaşdıran mühiti, insanları görürük.

Şəxsiyyətin özülü, başlanğıcı atadan, anadan, onun doğulduğu torpaqdan başlayır. Fikrət Qoca Ağdaş rayonunun Kotanarxı kəndində, ziyalı ailəsində dünyaya göz açmışdır. Kotanarxı kəndi Azərbaycanın adi və kiçik kəndlərindən biridir. Lakin Fikrət Qoca

doğma kəndinə həsr etdiyi şeirlərində kəndin kiçikliyinə, adi olduğuna işarə vurmayıb. O, kəndinin ağacını, quşunu, arxını, çəmənini ana vətənin bir parçası kimi təqdim edib.

**Ana yurdun çinar kimi torpağından**

**Ucalmışıq**

**Yarpaq-yarpaq tökülmüşük, qocalmışıq.**

**Yarpaq-yarpaq bir an, bir gün, bir xatirə,**

**Bir əbədi yaşamaqçün qarışırıq**

**Ana yurda, doğma yerə.**

Fikrət Qoca vətən və torpaq haqqında düşüncələrini qələmə alanda çox vaxt tərənnümdən, mədhdən qaçır, çalışır ki, fikrini orijinal bədii vasitələrlə ifadə etsin.

**II Aparıcı:** F. Qoca elə bir dövrdə ədəbiyyata gəlib ki, həmin dövrdə ya gərək tənqidçilik yolunu tutaydın, ya da təzə, orijinal ruhlu şeirlər yazıb tanınaydın. Şeirə gəlmək, poeziya aləminə qədəm qoymaq asan idisə, orada tanınmaq çətin idi. Bütün dövrlərdə olduğu kimi, 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində də şeirimizdə anormal hallar-şablonçuluq, təqlidçilik, məzmunçuluq davam edirdi. İstedadsızlar üçün bu mənada "şair" olmaq asan idi. Fikrət Qoca elə ilk şeirlərindən heç kimə bənzəməməyə çalışırdı. O elə ilk şeirlərindən fərdi dəst-xətti və yazı manerası ilə yaşıdlarından seçilməyə, fərqlənməyə başladı. İlk şeirlərində o da ənənəvi mövzularda qələmini sinayırdı. Amma elə bu şeirlərdə özünəməxsusluğu nəzərə çarpırdı. "Hamıya borcluyam" şeirinə müraciət edək:

**Ataya borcluyam mən,**

**Anaya borcluyam mən.**

**Bəlkə də bu dünyada**

**Hamıya borcluyam mən.**

**Dagları aşa-aşa,**

**Selləri aşa-aşa,**

**Məktubumu daşıyan,**

**Adını bilmədiyim**

**Adi bir vətəndaşa**

**Nə qədər borcluyam mən.**

**I Aparıcı:** Bu şeir öz səmimiyyətilə diqqəti daha çox cəlb edir. Şeirdə təblig olunan ideya didaktik məna daşısa da, bütün dövrlər üçün müasirdir. Bu şeiri yazanda Fikrət Qoca haqqında xoş sözlər deyənlər çox oldu, tənqid edənlər də. Həmin dövrdə 60-cı illərdə istedadlı ədəbi gəncliyin bir hamisi vardı o da Rəsul Rza idi. Məhz Rəsul Rza 60-cı illərdə ədəbiyyata gələn bir sıra istedadlı cənclərin, o cümlədən Fikrət Qocanın şeirlərindəki yenilik hissini vaxtında duya bildi. O, “ Fikrət Qoca haqqında” adlı məqaləsində yazırdı: “Son illər Azərbaycan poeziyasına bir dəstə təzə nəfəsli, istedadlı gənc şair gəlib. Bu şeir pöhrələri arasında Fikrət Qoca ilk yerlərdən birini tutur. Bir neçə il əvvəl onun dövri mətbuatda çap olunmuş şeirləri orijinal dəst-xətti, özünəməxsus üsulu olan narahat bir şairin gəlişindən xəbər verirdi.

...Fikrəti, bir şair kimi daha çox çağdaş dünyanın ən mühüm problemləri, insanların taleyi düşündürür. Onun “Anam yaman fikirlidir”, “Sinaqlar”, “Pəncərə”, “İnsan arzuları”, “Balıqçıyam” və bir sıra başqa şeirlərində sadə insanların taleyi üçün güclü bir şair narahatlığı var.

**II Aparıcı:** Fikrət Qoca inkişafda olan istedadlı şairdir. O, qədim və zəngin Azərbaycan poeziyasının ənənələrindən bəhrələnərək, çağdaş dünyanın poeziyasından öyrənərək öz yolunu, öz ifadə tərzini, öz poetik dəsti-xəttini arayır. Bu cəhətdən Fikrət öz yaşına görə çox şeylərə nail olub. Və onun elədikləri əsas verir inamla deyəsən ki, Fikrət öz yaradıcı zəhməti ilə böyük uğurlar qazanacaq və Azərbaycan poeziyasında öz görkəmli yerini tutacaq”.

**Oxucular səhnəyə daxil olur Fikrət Qocanın “Dörd Addım” şeirini soyləyirlər.**

**Mənim ömrüm ağır yükdü,**

**Çünkü cəzam ömürlükdü.**

**Daş divarlar arasında bir əsirəm**

**Bu dünyaya gəldiyimə müqəssirəm.**

**Heş özüm də düşünmürəm**

**Acam, toxam.**

**Yəqin heç kəs soruşmur ki,**

**Varam, yoxam.**

**Gündə yüz yol ölçürəm mən**

**Bu otağın uzunluğu dörd addımdı.**

**Enini də çox ölçmüşəm dörd addımdı.**

**Burda yalnız ikimizik**

**Bir özüməm, bir adımdı.**

Fikrət Qoca müasir şeirimizin qüdrətli yaradıcılarındandır. Bu danılmaz həqiqətdir. Bəli, bütün yaradıcılığı boyu Fikrət Qoca üçün heç bir mövzu qıtlığı və məhdudiyyəti olmayıb. O, hər şeydən yazıb: atadan, anadan, övlad məhəbbətindən, onu sevindirən kiçik bir uğurdan, bir qələbədən, ürəyinə dəyən bir sözdən, öz kəndindən-o kəndin suyundan, çinarından, arxından, qarış-qarış gəzdiyi Azərbaycanın gözəl təbiət mənzərələrindən, tanıdığı və dostluq etdiyi adamlardan, sevgidən, məhəbbətdən, gəzdiyi, səfərdə olduğu ölkələrdən, tariximizin şanlı və qaranlıq səhifələrindən və s. hisslərdən yazıb. Bu şeirlərin çoxu zamanla səsləşib, yazıldığı dövrdə oxucular tərəfindən yüksək qiymətləndirilib. Onların çoxu indi də bir ədəbi nümunə kimi öz bədii təravətini itirməmişdir. Belə şeirlər həm poetik nümunə kimi, həm də müasirlik mənasında həmişə yaşayacaqdır.

**I Aparıcı:** Fikrət Qoca son dərəcə həssas şairdir. Onun həssaslığı dünyanın çox-çox uzaq nöqtələrində baş verən hadisələr, olaylar, inqilablar, müharibələr zamanında neçə-neçə şeirə, poemaya çevrilib. Nikbin adlandırdığımız Fikrət Qoca çöldə ağacların ağlamasını görəndə, onların niyə qurumasının, yarpaqlarını

niyə tərk etməsinin səbəbləri haqda düşünəndə bizə daha kövrək insan təsiri bağışlayır.

**Belə bir kövrək insanın "Seçilmiş əsərlər" kitabındakı etirafını oxucularımıza bir daha çatdırmaq istəyirəm.**

Əziz oxucularım! Unutmayın ki, mən sizin hər biriniz yaşda olmuşam. Hər birinizin keçirdiyi hissləri keçirmişəm, düşdüyünüz vəziyyətlərə düşmüşəm. Eynilə həmin vəziyyət olmasa da, ona bənzər vəziyyətlərdən keçmişəm.

Mən dərdimi danışmaqdan xoşlanıram. Yerli-yersiz dərdini danışan adamları da xoşlamıram. Amma düşdüyüm vəziyyətləri, keçirdiyim hissləri yarızarafat-yarıgerçək şeirlərə döndərirəm. Onların bir qismi bu kitabda toplanıbdır. Bu kitabda ömrümün çox illərindən, bütün fəsillərindən anlar var. Siz də həmin o hisslərin bəzisindən keçmisiniz, bəzisini də indi keçirirsiniz, bəzi şeirlərdəki duyğularsa hələ irəlidə sizi gözləyir.

Mən çox enişli-yoxuşlu, kədərli-sevincli, gərgin, amma olduqca zəngin bir ömür yaşamışam. Siz kitab dediyim ömrün anlarını vərəqlədikcə güman edirəm ki, özünüzə bu sətirlər arxasından ümid, təsəlli tapacaqsınız. Sevincinizə, uyğun sevincin, kədərinizə bənzər kədərin ifadəsini oxuyacaqsınız. Əgər belə olarsa, yazdıqlarım sizi bir an da olsun ovundurursa, sizə iynənin ucu boyda ümid verərsə ruhum dincələcək. Elə biləcəyəm, mən bu uzun ömrü hədər yaşamamışam.

Əziz oxucu, arzu edirəm, bir zaman ömrünün günbatanında oturub "İlahi, mənə rahatsız və zəngin bir ömür verdiyin üçün sənə təşəkkür edirəm. Bu təşəkkürdən biri də hüzurunda hesabat verən şair Fikrət Qocanın əvəzinə olsun"-deyəsən. O zaman mən onu eşidib xoşbəxt olacağam".

Həyatın mənə verdiyi əzabları da, sevincləri də, taleyin qisməti bilib yaşamışam. Səhər günəşin doğmağından böyük möcüzə yoxdur, axşam günəşin batan çağından dərin və gözəl mənzərə yox. Dünyada insan ömründən şirin və mənalı hələ heç nə kəşf edilməyib.

Fikrət Qoca küləyin, yarpağın, suyun nəğməsini dilimizin ən zərif, ən həzin sözləriylə ifadə etməyi bacaran şairdir.

**Buludlar getdi dənizə,**

**Dəniz çiməcək bu gecə.**

**Dənizə düşən damcını**

**Balıq əməcək bu gecə.**

**Buludlar gedir dənizə,**

**Hər damlası bir sözüdür.**

**Buludların ağlamağa**

**Xəlvət yeri dənizidir.**

Buludun, damlanın, dənizin, yarpaqların, küləyin, suyun insanı əhatə edən dünyanın və insanın özünün ən xəfif, ən gizli duyuğularını, ən dərin, ən qəliz fikirlərini Şeirə, nəğməyə, sözə çevirmək məharəti şairin həm Allah vergisi, həm də yer üzündə vəzifəsi, həm də təsəllisidir.

Dünya Sözdən və Sözlə yarandığı kimi Sözlə də yaşayır. Deməli, Sözü deyənlər də, eşidənlər də fanı deyil, əbədidirlər, baqidirlər.

**II Aparıcı:** Fikrət Qocanın müxtəlif illərdə yazdığı “Özümə bir ağız layla”, “Gecə yaman uzundur”, “Papiros çəkirəm”, “Nərgiz”, “Ərkəc”, “Babalarım”, “Yazıq adam yoxdur” şeirləri F.Qoca oxucusunun ürəyinə yaxın şeirlərdir.

Fikrət Qoca fikir və düşüncə şairidir. Fikrət Qoca çoxəsirlik Azərbaycan poeziyası ənənələrinə hədsiz dərəcədə sədaqətli olan, eyni zamanda, ən modern poeziya nümunələrinə də biganə qalmayan yenilikçi şairdir.

Fikrət Qoca səksən yaşına çox gümrah və əvvəlki nikbinliyi ilə gəlib çatıb. Onun belə bir misrası var: “Adamı qocaldan tənhalıq olur”. Amma belə bir tənhalıq heç bir vaxt Fikrət

Qocanın qapısını döyməyib və döyməyəcək də. Çünki F. Qocanın şeirləri qədər dostları var.

Son dövr Fikrət Qoca poeziyasının əvvəlki dövrlərindən fərqi ondadır ki, indi o qocalıq, dünyayla vidalaşmaq, həyatın faniliyi haqqında daha çox düşünür və yazır. Amma əvvəlki dünyaduyumuyla eyni cəhəti ondan ibarətdir ki, ilk gəncliyində oldugu kimi mərd yaşayır və həyatın amansız gərdişini də mərd-mərdanə qəbul edir. Yəni bu qədər kədərli və ciddi mövzulardan yazanda da zarafatından qalmır.

**Daha üzüm o yanadı,**

**İşim hamısı miyanadı,**

**Hər an bir addım yanadı,**

**Gilə-gilə qocalıram.**

**Yamanca tərsdi qocalıq,**

**Yolumu kəsdi qocalıq,**

**Bilirəm pisdi qocalıq,**

**Bilə-bilə qocalıram.**

**Oxucular "Dayanacaqda Görüş" adlı kitabından bir şeir səsləndirirlər.**

**Adım burdan əkilir,**

**Görürsən orda-burda**

**Hərdən adım çəkilir.**

**Adım tez də qayıdır**

**Bostanına, tağına,**

**Quru can otağına.**

**"Quru" dedim haqsızam**

**Burda nəm bəs qədərdi.**

**Burda daş-divar ağlar**

**Əridər qəmi, dərdi.**

**Dərdim burda qalacaq**

**Məhbus gəldi-gedərdi.**

**Mən ruhuma qəfəsəm,**

**Qəfəs içində qəfəs.**

**Məni bura gətirdi**

**Böyük eşq, böyük həvəs.**

**Seçilmək istəyənlər**

**Bilsinlər ki mənim tək**

**Bir gün seçilə bilər.**

**Uzun bir ömür yolun,**

**Dörd addımlıq otaqda**

**Qalıb, keçilə bilər.**

**Bu boyda, bu biçimdə,**

**Bu daş qəfəs içində**

**Ömrün yüz ili yaşar,**

**İlin dörd fəsli yaşar.**

**Dünyanın dörd cəhəti**

**Bu kiçik otaqda var;**

**Şimal, cənub, qərb və şərq.**

**Mənim kimi yaşayır**

**Dünyada bütün bəşər.**

**Dörd addımlıq otaqda**

**Haqq, nahaq, xeyir və şər.**

**“Ağlım, qəlbim “hə” desə,**

**Bu kiçik qəfəsimə**

**Bütün dünya yerləşər.**

**Bir şeytan ürəyimin**

**İçini qurdalayır.**

**Bir şeytanın sözləri**

**Qulağımı dalayır.**

**Deyəsən yer üzündə**

**İnsandan çoxdu şeytan.**

**Hara diqqətlə baxsan,**

**Hər yerdən və hər şeydən**

**Üzünə baxır şeytan.**

**Evdə qanmaz uşagım,**

**Çöldə qəzəbli şahım,**

**Ac qarnım, dinc qulağım.**

**Zindanımın daşları**

**Yastıqdan yumşağım,**

**Baş qoyub yatmalıdı...**

**Məni ağır yuxumdan**

**Ölüm oyatmalıdı,**

**Ömürlük məhkumam mən...**

**Düzü hələ bilmirəm**

**Nəçiyəm mən, kiməm mən?**

**Mən anamın bətnində**

**Doqquz ay məhkum oldum.**

**Məhkumluğa dözmədim,**

**Bu dünyaya doğuldum!**

**Doğuldum, bəs kim oldum?**

Fikrət Qoca Sözün yardıcısı, keşişçisi, qoruyucusu və yeniləciyisi kimi öhdəsinə düşən vəzifəni şərəflə yerinə yetirir. Gənc yaşlarınadan özünə Qoca təxəllüsü seçən Fikrət yeni əsərləriylə bir daha sübut edir ki, bu gün də şeirimizdə cavanların cavanıdır. Və bu yalnız Fikrət müəllimin yox, hamımızın təsəllisidir.

Son

# Ədəbiyyat siyahısı:

## İnternetdə: www. Vikipediya.az


1. **Fikrət Qoca. Seçilmiş əsərləri. B.: "Şərq-Qərb", 2004.-248 s.**
2. **Fikrət Qoca. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1988.-374 s.**
3. **Fikrət Qoca. Adi həqiqətlər. B.: Azərnəşr, 2000.-219 s.**
4. **Fikrət Qoca. Dayanacaqda görüş. B.: "Nurlan", 2009.- 140 s.**
5. **Fikrət Qoca. Dənizdə ay çiməndə. B.: Azərnəşr, 1967.-111 s.**
6. **Fikrət Qoca. Gül ömrü. B.: Gənclik, 1976.-166 s.**
7. **Fiktət Qoca. Hələlik qiyamətəcən...B.: Yurd, 2001.-394 s.**
8. **Fikrət Qoca. İnsanların arasinda. B.: Gənclik, 1974.-133 s.**
9. **Fikrət Qoca. İnsan xasiyyəti. B.: Gənclik, 1980.-197 s.**
10. **Fikrət Qoca. Könlümdən keçənlər. B.: Azərnəşr, 2009.- 192 s.**
11. **Fikrət Qoca. Ömürdən səhifələr. B.: Yazıçı, 1984.-504 s.**
12. **Fikrət Qoca.  Özümə məktub. B.: Yazıçı, 1983.-223 s.**
13. **Fikrət Qoca. Taleyin ağır taleyi. B.: Gənclik, 1993.-248 s.**
14. **Fiktət Qoca. Yatmadığım gecələrdə. B.: Gənclik, 1970.-191 s.**
15. **Fikrət Qoca. Ulduzlu düşüncələr. B.: Yazıçı, 1978.-135 s.**